AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

CEFRİ YEVGENİDES VƏ CONATAN SAFRAN FOYERİN NƏSRİNDƏ İDENTİKLİK AXTARIŞLARI

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Qismət Elçin oğlu Rüstəmov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2024

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
Aynur Zakir qızı Sabitova

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
Nigar Vəliş qızı İskəndərova

filologiya üzrə fəlsəfə doktoru
Mənsurə Tiflis qızı Ağayeva

filologiya üzrə fəlsəfə doktoru, dosent
Arif Alim oğlu Əsədov

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
Azad Yəhya oğlu Məmmədov

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
İradə Nadir qızı Sərdarova

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
Şahin Həmid oğlu Xəlilli

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Bu gün planetar miqyasda vüsət alan qloballaşmanın təsiriylə dövlətlər, millətlər arasında, elmi-texniki kəşflərin yaratdığı yeni virtual reallıq ilə insanlar və onların təmsil etdikləri kimliklər arasında baş verən radikal paradiqma dəyişikliyi, eləcə də implisit, yaxud eksplisit formada özünü göstərən konfliktlər neo-liberalizmin mütləq qələbəsini elan edənlərin tələsdiyini, maddi rifahın heç də mənəviyyatı, mədəniyyəti əvəz etmədiyini etiraf etməyə, ən azı yenidən düşünməyə vadar etməkdədir. Özünə konfort zonalar yaradıb ora qapanmaqla, özgəsinin mövcudluğunu görməzdən gəlməklə heç bir pozitiv nəticə hasil etməyən bəşəriyyət bu böhrandan çıxmağın yeni yollarını axtarmaqdadır. Bu axtarışların mümkün nəticələrindən biri kimi dünyanı və insanı anlamağa çalışan humanitar fikrin bütün sahələrində qarşılıqlı inteqrasiya, müqayisəli, interdisiplinar tədqiqatlar çoxalır.

Bu rakursdan baxanda XX əsrin ikinci yarısından başlayaraq həmin əsrin sonralarına doğru klassik imperiyaların tarixə qovuşması ilə dünya ictimai-siyasi fikrində olduğu qədər incəsənətdə, fəlsəfədə, ədəbiyyat və ədəbiyyatşünaslıqda da identiklik məsələləri aktuallaşır. İdentiklik axtarışı daha çox etnik, milli və dini tərkibi zəngin olan, multikultural cəmiyyətlər üçün xarakterikdir. “Öz” və “özgə” qarşıdurması nəticəsində ortaya çıxan kimlik problemləri bugünkü qloballaşan dünyada demək olar ki, humanitar fikrin əsas mövzularından biridir.

İki dünya müharibəsindən çıxdıqdan sonra dünyanın ictimai-siyasi, eləcə də mədəni-humanitar, ədəbi-fəlsəfi mənzərəsi liberal-kapitalist Qərb bloku ilə sosialist bloku arasında idi və əsrin sonralarına qədər bu iki qütbün qarşıdurması bütün sahələrdə bu və ya digər dərəcədə özünü göstərirdi. XX əsrin sonlarında sosialist blokun çökməsi və ABŞ-ın özünü dünyadakı bütün proqressiv meyillərin təminatı elan etməsini müşayət edən radikal texnoloji yenilik dalğası, dünyanı qlobal kəndə çevirən internetin yaratdığı yeni reallıq mədəniyyətə, ədəbiyyata da yeni rakurs, baxış gətirdi. Belə ki, konvensional media öz yerini sosial şəbəkələrə, “yeni

media” anlayışına verdi, ənənəvi kitab elektron kitaba çevrildi. Əvvəllər yalnız hər kəsin evində interyerin bir hissəsi olan telefon və televizor kimi daşınmaz nəsnələr mobilləşdi, insanların cibinə, çantasına yerləşəcək ölçülərə düşdü. Bu yeni reallığın fonunda həm Bill Qeyts kimi yüksək texnologiya istehsal edən transmilli şirkət rəhbərləri, həm qeyri-humanitar sahənin (məsələn, Alan Sokal kimi riyaziyyatçılar, fiziklər) nümayəndələri zaman-zaman ədəbiyyata, kitaba, mənəviyyata aşkar, yaxud gizli şəkildə hücum edən sözlər sərf etməyə başladılar. Bu çıxışların ümumi məzmunu bundan ibarətdir ki, universitetlərdə humanitar sahələri saxlamağın, şeir, roman oxumağın insana nə xeyri var? Biz gücü daha çox tətbiqi elmlərə, texnologiyaya, tibbə, gen mühəndisliyinə versək, gələcəkdə dünyaya daha çox xeyir vermiş olmarıqmı? Zaman-zaman rəğbət görən bu təhlükəli fikirlər dövlətlər və millətlər arasında konflikt ocaqları sönmədikcə, əksinə, XXI əsrdə yenidən ağlagəlməz şəkildə vüsət aldıqca, bəşər övladının ancaq maddi, praktik yox, eyni zamanda və bəlkə də daha çox emosional varlıq olduğunu, onun mənəvi dünyasını nəzərə almadan özünü qalib elan edən hər bir ideyanın məhvə məhkum olduğunu bir daha göstərdi. Bu mənada bir tərəfi ilə ictimai-siyasi, digər tərəfi ilə kulturoloji anlayış olan identiklik araşdırmalarına, yəni insan kimliyinin mürəkkəbliyi ilə bağlı əsərlərə və onların şərhinə humanitar fikirdə əvvəlkindən də çox müraciət edilir.

Mürəkkəb sosial strukturu, çoxmillətli və çoxkonfessiyalı cəmiyyəti olan ABŞ-da identiklik problemi mütəmadi şəkildə tədqiqata cəlb olunur, problemlər, alternativ nəzəriyyələr dəyərləndirilir. ABŞ-da tarixən identiklik anlayışı daha çox iki açar-metafora üzərindən şərh edilir: “əritmə qazanı” (melting pot) və “salat kasası” (salad bowl). “Əritmə qazanı” ifadəsi fərdlərin öz etnik kimliklərindən və mədəniyyətinlərindən qoparaq yeni və ortaq bir amerikan mədəniyyəti, kimliyi əmələ gətirmək fikrini ifadə edir. “Salat kasası” ifadəsi isə müxtəlif məmulatların öz xüsusiyyətlərini itirmədən bir yerə yığıldığı, ancaq nəticə etibarilə dadlı bir bütövlüyün əldə olunduğu salat kimi, etnik müxtəlifliklər olsa da, homogen olmayan, lakin vahid olan amerikan cəmiyyətini ifadə etmək üçün istifadə edilir. Bu iki bənzətmə, analoji olaraq, iki

termini – assimilasiya və multikulturalizmi yada salır. Burada "əritmə qazanı" deyiləndə etnik azlıqların öz mədəni miraslarını tərk edib amerikan həyat tərzini mənimsəməsi – yəni assimilasiya, "salat kasası" deyiləndə isə hər etnik qrupun öz mədəni mirasına sahib çıxması, yəni multikulturalizm nəzərdə tutulur. Şübhəsiz ki, siyasi mərkəzlərin təşviqi ilə cəmiyyətin bütün sahələrinə nüfuz edən identiklik kimi bir anlayış ədəbiyyatdan yan keçə bilməzdi. Ötən əsrdə ABŞ ədəbiyyatında Filip Rot, Toni Morisson və başqalarının, müasir dövrdə isə Cefri Yevgenides, Conatan Safran Foyer kimi yazıçıların əsərlərində identiklik probleminə gətirdiklərini yeni yanaşmanı görmək mümkündür.

Qeyd etməliyik ki, yunan əsilli Cefri Yevgenidesin və yəhudi kökənli Conatan Safran Foyerin romanlarında identiklik probleminə həm ideya-məzmun, həm də struktur-forma qatında gətirdikləri yeni baxış təkcə ABŞ bədii ədəbiyyatı və ədəbiyyatşünaslığı çevrəsində qalmamış, ölkənin, qitənin sərhədlərini aşaraq ümumqərb humanitar fikrində geniş müzakirələr doğurmuşdur. Fikrimizcə, bu, müdafiəyə təqdim edilmiş dissertasiyanın Azərbaycan cəmiyyəti və ədəbiyyatşünaslığı üçün aktuallığını göstərir.

İdentiklik araşdırmaları ilə bağlı iki qütbdən söhbət açmaq mümkündür; birinci qütb bu anlayışı bədii ədəbiyyat nümunələrində dərindən analiz etməyin bəşəriyyətin mənəvi dünyasının zənginləşməsinə doğru bir addım olacağını, insanların özgəsini anlamağına daha çox təkan verəcəyini deyirsə, ikinci qütb identiklik anlayışının özünü tamamilə uydurma, fiktiv sayaraq inkar edir. Pozitiv qütbün əsas nümayəndəsi kimi Entoni Smit və onun "Milli kimlik" kitabını, neqativ qütbə isə Jan Fransua Bayar və onun "Kimlik illüziyası" kitabını misal çəkmək olar.

İdentiklik anlayışı dünya humanitar fikrində Marinna Hirş, Çarlz Qlikberq, İmmanuel Vallerştayn, Riçard D. Alba, Betti Börç, Cudit Batler, Fransisko Kollado-Rodrigez, Deyvid Geyts, Fredrik Ceymison, Franko Moretti, Umberto Eko, Harold Blum, Yan Çembers, Linda Hatçion, Miçiko Kakutani, Alis Skourbi və digər tədqiqatçıların əsərlərində öz əksini tapmışdır.

Azərbaycan humanitar fikrində identiklik problemi ilə bağlı son dövrlərdə bir dissertasiya işi, bir neçə kitab çap edilmişdir.

Dissertasiya işi Nərminə Qasımovanın yazdığı “Multikulturalizm və milli kimlik münasibətlərinin fəlsəfi aspektləri” adlı tədqiqat işidir. Mövzuyla bağlı çap olunmuş əsərlərə AMEA, Folklor İnstitunun hazırladığı “Ədəbiyyat və incəsənət: milli kimlik və mənəvi zənginlik”, Tahirə Məmmədin “Milli kimlik və bədii mətn”, "Müasir İnkişaf" İctimai Birliyinin layihəsi əsasında hazırlanmış "Milli-Mənəvi Dəyərlər və Milli Kimlik layihəsi: məqalələr toplusu”, Fazil Mustafanın “Azərbaycanda türk kimliyi və saxta tarix problemi”, AMEA, Fəlsəfə İnstitutunun hazırladığı “İdentiklik multikulturalizm dialoq fəlsəfəsi”, AMEA Fəlsəfə İnstitutu ilə Venesiyada "Ka Foskari" Universitetinin birgə hazırladıqları Azərbaycan və İtalyan multikulturalizm modelləri və maarifçilik problemlərinə, həmçinin mədəniyyətlərarası qarşılıqlı əlaqələr ilə identikliyin formalaşması arasında bağlılığın analizinə həsr olunmuş “İdentiklik və multikulturalizm: metodologiya, tendensiyalar və perspektivlər Beynəlxalq elmi konfransın toplusu” kitablarını misal göstərə bilərik.

Müstəqillik illərində ədəbiyyatşünaslığımızda Amerika ədəbiyyatı ilə bağlı çoxsaylı araşdırmalar aparılıb, elmi işlər yazılıb, kitablar nəşr edilib. Bu sıradan Qorxmaz Quliyevin “XX əsr Amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar”, “Amerika ədəbiyyatı: tarixi oçerklər”, Aynur Sabitovanın “Amerika romantizmi: təşəkkülü, inkişafı və özəllikləri”, “XVII əsr Amerika ədəbiyyatı”, “XVIII əsr Amerika ədəbiyyatı”, “Dünya romantizminin tipologiyası (Amerika və Azərbaycan ədəbiyyatlarının təcrübəsi əsasında)”, Nuranə Nuriyevanın “Teodor Drayzer və Azərbaycan”, Şükufə Vəliyevanın “XX əsr Amerika ədəbiyyatında Amerika ideyasından Amerika mifinə doğru” (U.Folkner və P.Osterin yaradıcılığı əsasında), Aliyə Əhmədovanın “Toni Morrisonun poetikası”, Fəxriyyə Rəhimovanın “Çağdaş Amerikan detektiv janrı” (Dən Braunun yaradıcılığı əsasında), Gilə Hüseynlinin “Çağdaş Amerikan bədii ədəbiyyatında postmodernizmin inikas xüsusiyyətləri” (Don Delillo və Pol Oster yaradıcılığı əsasında), Ülviyyə Məmmədovanın “Amerika və Azərbaycan nəsrində mənəvi-etik axtarışların müqayisəsi” (F.S.Fitscerald və Ə.Əylisli yaradıcılığı əsasında) adlı araşdırmalarını misal çəkə bilərik.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyektini çağdaş Amerika ədəbiyyatının iki novator romançısı, əsərlərində identiklik məsələlərini xüsusi diqqət ayıran Cefri Yevgenidesin və Conatan Safran Foyerin əsərləri təşkil edir.

Tədqiqatın predmetini XX əsrin ikinci yarısında ortaya çıxan, XXI əsrdə daha da geniş vüsət alan, humanitar düşüncənin bütün sahələrinə nüfuz edən identiklik anlayışının bədii ədəbiyyatdakı təcəssümü, xüsusilə C. Yevgenides və C.F. Foyerin əsərlərində yeni inikasını tapması təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Dissertasiya işinin əsas məqsədi XXI əsrdə üçüncü nəsil immiqrant yazıçılar olan Cefri Yevgenides və Conatan Safran Foyerin romanlarında özünü yeni forma və məzmunda göstərən identiklik anlayışının tarixi köklərini təhlil etmək, onun müasir bədii ədəbiyyat nümunələrində əks olunma xüsusiyyətlərini araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin gerçəkləşdirilməsi nəzərdə tutulur:

- İdentiklik anlayışının yaranması, formalaşması və transformasiyalarını nəzərdən keçirmək;
- Amerika mədəniyyətində identiklik anlayışının keçdiyi yola nəzər salmaq;
- Çağdaş Amerika ədəbiyyatında aktuallığını qoruyan identiklik anlayışının hal-hazırkı vəziyyətini İkinci Dünya müharibəsindən sonra yaradıcılığa başlayan müəlliflərin əsərlərinə əsasən üzə çıxarmaq;
- Cefri Yevgenidesin müasir Amerika ədəbiyyatına gətirdiyi yeniliklərini müəyyənləşdirmək;
- C.Yevgenidesin “Bakirə müntəhirlər” romanında yeniyetmələrin identiklik böhranını analiz etmək;
- C.Yevgenidesin “Midlseks” romanında identiklik anlayışına bioloji-genetik baxışı təhlil etmək;
- C.Yevgenidesin “Evlilik əhvalatı” romanında praqmatik və romantik kimliklərin qarşıdurmasını şərh etmək;
- Müasir Amerika ədəbiyyatında C.F.Foyerin əsərlərinin yerini təyin etmək;

- C.S.Foyerin “Hər şey aydınlandı” romanında Holokost sonrası Amerikaya köçmüş yəhudilərin üçüncü nəslində identiklik probleminə yanaşmasını təhlil etmək;
- C.S.Foyerin “Mən, buradayam” romanında sosial şəbəkələrdəki virtual kimliklər erasında amerikan-yəhudi kimliyinin çağdaş təzahürlərini analiz etmək;
- C.S. Foyerin “Hədsiz səs-küylü və inanılmaz doğma” romanını çağdaş bildunqsroman roman örnəyi kimi, baş qəhrəmanın kimlik axtarışlarının böhran vəziyyəti kontekstində araşdırmaq;

Tədqiqat metodları: Dissertasiyada romanları araşdırılan çağdaş Amerika yazıçılarından birinin yəhudi (Foyer), digərinin isə yunan əsilli (Yevgenides) olması bizə imkan vermişdir ki, tədqiqat işində tarixi-müqayisəli və bioqrafik metodlardan istifadə edək. Dissertasiyada ədəbiyyatşünsalıqla yanaşı, məşhur psixologiya, sosiologiya, antropologiya nəzəriyyələrindən istifadə edilib, bu mənada elmi işdə XXI əsrin əsas araşdırma metodlarından sayılan interdisiplinar (təlimlərarası) metoddan da istifadə edilib.

Müdafiəyə çıxarılan əsas müddəalar:

1. İdentiklik anlayışı zahirən mənlik anlayışına bənzəsə də, “öz” və “özgə” qarşıdurmasının yaratdığı ziddiyətləri aşaraq daha tolerant bir dünya naminə başqasının varlığını anlamaq baxımından, habelə mənəvi nəticələrinə görə ədəbi-bədii mətnlərdə təhlilə çəkiləndə daha faydalı olur.
2. Üçüncü nəsil immiqrant yazıçılar öz əsərlərində identiklik probleminə əvvəlki nəsillərdən fərqli olaraq daha eksperimental yanaşırlar.
3. C. Yevgenidesin “Bakirə müntəhirlər” romanında “amerikan arzusu” mifi konservativ sosial mühitdə yeniyetmələrin identiklik böhranı prizmasından tənqid edilir və kollektiv kimlik problemi romanın narratoloji strukturunda “biz təhkiyəçi” şəklində özünü göstərir.
4. C.Yevgenidesin “Midlseks” romanı biologiya və genetikanın elmi nailiyyətlərini identiklik probleminin təsvir və təhlilinə cəlb etməklə, ənənəvi birbucaqlı məhdud dünyagörüş əvəzinə, eksperimental çoxbucaqlı dünyagörüş təklif edir.

5. C.Yevgenidesin “Evlilik əhvalatı” romanında “evlilik” anlayışını dekonstruksiya etməklə romantik-praqmatik kimlik tiplərinin sosial seçim, ictimai hadisələrin təsiriylə formalaşan konstruksiya olduğunu göstərməyə çalışır.
6. Conatan Safran Foyer “Hər şey aydınlandı” romanında üçüncü nəsil yəhudi immiqrantların kimliklərinin daim yarımçıq olacağını, həmin natamam hissəsinin ancaq bədii təxəyyül hesabına təsəvvür ediləcəyini iddia edir və romanda bunun qarşılığını həm formal müxtəliflik, həm də fraqmentar təhkiyə ilə verir.
7. C.S.Foyerin “Hədsiz səs-küylü və inanılmaz doğma” romanı 11 sentyabr terror aktında atasını itirən travmatik bir uşağın kimlik axtarışı kimi təqdim edilsə də, bu, yeni çağda Amerikanın identiklik böhranından xəbər verir.
8. C.S. Foyerin “Mən, buradayam” romanında identiklik ziddiyətlər hesabına mövcud olan anlayış kimi təqdim edilir.

Tədqiqatın elmi yeniliyi: Son illərdə identiklik məsələləri ilə bağlı araşdırmalar, xüsusilə, ölkə başçısının 2016-cı ili ölkəmizdə multikulturalizm ili elan etməsindən[1] sonra geniş vüsət almışdır. Lakin bu tədqiqatlarda daha çox XX əsrin müəllifləri və bədii nümunələri təhlilə çəkilmişdir. Belə ki, son illərdə bu mövzuda Günel Cənnətovanın “İngilisdilli yəhudi ədəbiyyatı II Dünya müharibəsindən sonrakı Amerika ədəbiyyatı kontekstində”, Ləman Pənahovanın “XX əsr Böyük Britaniya postkolonial ədəbiyyatında multikulturalizm”, Günel Əbdürrəhmanovanın “Böyük Britaniya ədəbiyyatında milli tarixin identifikasiyası konsepsiyası” kimi tədqiqat əsərləri yazılmışdır. Bu tədqiqatlardan Günel Cənnətovanın elmi işi identiklik mövzusuna birbaşa Amerika ədəbiyyatı kontekstində yox, ingilisdilli yəhudi ədəbiyyatı ilə münasibətdə baxmış, daha çox ikinci nəsil immiqrant yazıçıların yaradıcılığına fokuslanmışdır. Digər iki araşdırmaçı isə problemə daha çox Böyük Britaniya ədəbiyyatı müstəvisində baxmışdır.

[1] Əliyev, İ. 2016-cı il Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] / Bakı şəhəri, 11 yanvar 2016. URL: https://president.az/az/articles/view/17437

Bu baxımdan təklif olunan dissertasiya işi çağdaş Amerika ədəbiyyatında üçüncü nəsil immiqrant yazıçıları təmsil edən Cefri Yevgenidesin və Conatan Safran Foyerin yaradıcılıqlarına ilk dəfə müraciət etməsi, habelə sözügedən yazıçıların əsərlərində identiklik probleminə sistemli yanaşması ilə seçilir. Bu baxımdan da ilk dəfə təhlilə cəlb olunan və nəzəri cəhətdən həllini tapan bu məsələlər tədqiqatın elmi yeniliyidir.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti: Dissertasiya işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, çağdaş Amerika ədəbiyyatında kimlik məsələləriylə bağlı olan bu tədqiqat həm öz ədəbiyyatşünaslığımızın, həm də Qərb ədəbi-humanitar fikrinin modern ədəbi tendensiyalar işığında araşdırılmasına impuls verə bilər. Dissertasiyanın nəticələrindən universitetlərin filologiya fakültələrində dərs vəsaiti kimi, eləcə də müasir Amerika ədəbiyyatı ilə bağlı tədqiqatlarda istifadə oluna bilər.

Tədqiqatın aprobasiyası və tətbiqi: Dissertasiya mövzusu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının 14 mart 2019-cu tarixli 3 saylı iclasında təsdiqlənmişdir. Tədqiqatda irəli sürülən fikir və mülahizələr elmi konfranslarda, seminarlarda, həmçinin ölkəmizdə və xaricdə dərc olunmuş məqalələrdə öz əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı: Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, üç fəsil (hər fəsil 3 paraqrafa bölünmüşdür), nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin Giriş hissəsi 9 səhifə, 16000 işarə, I fəsil 28 səhifə, 54910 işarə, II fəsil 24 səhifə, 45445 işarə, III fəsil 31 səhifə, 51225 işarə və nəticə 6 səhifə, 7483 işarədir. Dissertasiya işinin ümumi həcmi ədəbiyyat siyahısı istisna olmaqla 201063 işarədir.

TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı, predmeti və obyekti, məqsəd və vəzifələri, elmi yeniliyi, metodoloji əsası, nəzəri və praktik əhəmiyyəti əsaslandırılmış, aprobasiyası və strukturu haqqında məlumat verilmişdir.

Dissertasiya işinin **“İdentiklik anlayışı və onun Amerika ədəbiyyatındakı təzahürləri”** adlanan I fəsli iki paraqrafdan ibarətdir**.** I fəslin **“İdentiklik (kimlik) anlayışının tarixinə ekskurs”** adlı birinci paraqrafında identiklik anlayışının ortaya çıxmasına, keçdiyi yola nəzər salınır, müxtəlif alimlərin bu anlayışa fərqli münasibətləri göstərilir.

Sürətlə dəyişən çağdaş dünyada alternativ nəzəriyyələrin, platformaların özünü ifadə imkanı tapması nəticəsində ən müxtəlif səviyyələrdə identikliklə, kimliklə bağlı yeni suallar ortaya çıxır, cavablar axtarılır. Kimlik axtarışları ötən əsrin birinci yarısında daha çox “milli kimlik”, “etnik kimlik” məsələləri ətrafında araşdırılırdısa, əsrin ikinci yarısında tədqiqatların sırasına “mədəni kimlik”, “cinsi kimlik”, “ictimai kimlik” kimi çoxsaylı başqa məsələlər də cəlb edildi.

XX əsrin ikinci yarısından etibarən geniş vüsət alan feminist nəzəriyyələrin təsiri ilə bəzi nəzəriyyəçilər “gender” sözünü “ictimai cinsiyyət” kimi istifadə etməyə başladılar. Bioloji cinsiyyətin əksinə, “gender” sözü isə daha çox ictimai, kulturoloji mənada təsbit edilən, yəni cəmiyyətdən cəmiyyətə dəyişən paraqdiqmaların ifadəsi üçün istifadə edilməyə başlandı.

Amerikalı nəzəriyyəçi Enn Fausto-Sterlinq də “cinsiyyət” və “ictimai cinsiyyət” fərqinin artıq köhnəldiyini, bu gün hər iki anlayışın iç-içə keçdiyini, onları ayırmağın əhəmiyyətsiz olduğunu vurğulayır.[2]

Məşhur feminist nəzəriyyəçi Cudit Batler də bu iki anlayış arasındakı fərqin itməyindən bəhs edir. Alimin fikrincə, cinsiyyət anlayışı problemlidir, belə ki, bioloji və ictimai cinsiyyət arasındakı ayrımlar aradan qaldırılsa, məlum olacaq ki, kişi-qadın ayrımı da

---

[2] Fausto-Sterling, A. Sexing the Body: Gender Politics and the Construction of Sexuality / A. Fausto-Sterling. – New York: Basic Books, – 2000. – 496 p.

daxil olmaqla, cinsiyyət anlayışı, əslində, hər cür təsnifatdan uzaq və dəyişkən təbiətlidir.

Bioloji kimliyin doğuşdan gəldiyinə inananlar essentialistlər (fitrətçilər), cəmiyyətin və mədəniyyətin təsiri ilə yarandığına inananlar isə sosial konstruktivistlərdir. Mənbəyini Platondan götürən klassik essentializmə görə, "fiziki dünya sabit və dəyişməz faktlar" toplusudur; çağdaş sosial elmlərdə istifadə edilən essentializm termini isə "təbii, məcburi, universal və bioloji" reallıqları ifadə edir. Essential düşüncəyə görə, cinsi kimliyin formalaşmasında cəmiyyətin və mədəniyyətin rolu yoxdur, yəni hər kəsin cinsi kimliyini onun cinsiyyət orqanları müəyyənləşdirir. Məsələn, onların fikrincə, homoseksuallıq obyektiv, içdən gələn, hormonal, genetik məhfumdur, bunun cəmiyyətlə, mədəniyyətlə heç bir əlaqəsi yoxdur.

Sosial konstruktivistlərin fikrincə, "reallıq ictimai komponentlərlə formalaşır". Bu düşüncə essentializmi inkar edir və cinsiyyətin anadangəlmə yox, əksinə ictimai qaydalara görə formalaşdığını iddia edir.

I fəslin **"Amerika ədəbi-nəzəri fikrində identiklik probleminə baxış"** adlı ikinci paraqrafında Amerika ədəbiyyatında identiklik axtarışları məsələsi yığcam formada təsvir edilir.

Postmodern erada Amerikada əvvəllər amerikalı kimliyinin içində asimilasiya olan alt-kimliklər, fərqli etnik köklərə sahib qruplar öz kimliklərinə daha çox bağlanmağa başladılar, radikallar hətta gettolaşdılar. Milli dövlətin əleyhinə olan qlobalistlər pozitiv diskriminasiyanı təşviq etdilər, azlıqların xeyrinə olan və onların statuslarına yüksəldən qərarları, proqramları dəstəklədilər, bu da Amerikan milli kimliyinə ciddi zərbə vurdu. Məhz bu prosesin tərkib hissəsi kimi Amerika humanitar fikrində və ədəbiyyatında əvvəllər istisna kimi görülən meyillər geniş vüsət aldı: Yəhudi-amerikan, çinli-amerikan, qrek-amerikan, qaradərili-amerikan, asiyalı-amerikan, transgender ədəbiyyatı, feminizm, homoseksual ədəbiyyat və s. kimi alt-kültür, subkultura fenomenləri ön plana çıxdı.

Çinli sənətşünas Pin-Çia Fenq özünün "Toni Morrison və Maksin Honq Kinqstonun yaradıcılığında qadın bildunqsroman:

Postmodern oxunuş”[3] kitabında yazır ki, Amerikan ədəbiyyatı həmişə kimlik axtarışlarıyla bağlı olub.

Gerald R. Adamsın[4] tərtibçisi və redaktoru olduğu “Yeniyetmə kimliyinin formalaşması” adlı kitabda kimlik fenomeni daim dinamika və təkamül içində olan proses kimi təqdim edilir. Bu kitabdakı alimlərin ortaq rəyi təxminən belədir ki, kimliyin formalaşma prosesi düzxətli, “linear” baş vermir, əksinə, müxtəlif elementlərin bir-biriylə üzvü şəkildə birləşməsindən, bir-birinə təsir etməsindən ortaya hər hansı bir nəticə çıxır.

Mədəniyyət nəzəriyyəçisi, sosioloq Stüart Hol[5] kimlik fenomeninin birmənalı olmadığını belə ifadə edir: “Kimlik statik, qapalı bir fenomen deyil, dəyişkəndir, hərəkətdədir”.

Linqvistik, fiziki, sosial mühit, inanclar, adət-ənənələr kimi multifaktorlu fenomen olduğu üçün kimlik məsələsi birmənalı deyil. Amerikada etnik azlıq kimi fərqləndirilənlərin inkişafı, kimlik axtarışları prosesində qarşılaşdıqları çətinliklərin əsasında elə bu müxtəliflik var. Etnik azlıqlar bir yandan amerikan mədəniyyətinin təzyiqi altında əzilirlər, digər tərəfdən isə öz mədəni dəyərlərini qorumağa çalışırlar, həmişə aralıq vəziyyətdədirlər. Bu vəziyyət bəziləri üçün problemli olsa da, bəziləri əksinə bu vəziyyəti faydalı hesab edirlər. Bu vəziyyəti problemli hesab edənlər deyirlər ki, üst kimlik olan amerikan kimliyi digər kimliyi əzir, onu həqir görür, onun özünü ifadə imkanlarını öz xeyrinə məhdudlaşdırır. Digər cinah – vəziyyəti fürsət kimi görənlər isə deyirlər ki, bu ikili kimlik vəziyyəti bölünmə, parçalanma, məcburi seçim vəziyyəti yaratmır, əksinə, iki kimliyi olanlar iki tərəfə aid olmağın imkanlarından faydalana bilirlər, daha geniş spektrli fərdlər olurlar. İki kimliyə sahib olmaq iki fərqli mədəniyyəti, iki fərqli dili mənimsəmək

---

[3] Pin-Chia, F. The Female Bildungsroman by Toni Morrison and Maxine Hong Kingston: A Postmodern Reading / F. Pin-Chia. New York: Peter Lang, – 1998. – 193 p.

[4] Adams, G.R. Adolescent Identity Formation: Advances in Adolescent Development / G.R. Adams, Th. P. Gullotta, R. Montemayor. Newbury Park: Sage Publications, – 1992. 256 p.

[5] Hall, S. Cultural Identity and Diaspora. Identity: Community, Culture, Difference / S. Hall, ed. J. Rutherford. – London: Lawrence& Wishart, – 1990. p. 222-237.

üstünlükdür. Məcburi şəkildə ikisindən birini seçmək əvəzinə ikisinə də sahib olmaq daha yaxşıdır.

Homi Babha[6] və Qloriya Anzaldua[7] kimi nəzəriyyəçilərin fikrincə, Qərbdəki ənənəvi binar ziddiyyətlər məntiqi üstündə qurulan dünyagörüşünün yerinə "üçüncü yer" anlayışına keçmək olar. Bu anlayışla alimlər dəyişməz, sabit, statik, standart ikili dünyagörüşü əvəzinə sintezi, üzvü birləşmədən doğan yeni nəticələri, yəni əslində, mədəniyyətin təxminən kimyəvi reaksiya kimi müxtəlif elementlərdən əmələ gəldiyini deyirlər. Kimlik nəzəriyyələri, kimlik axtarışları bucağından baxanda, Babhanın "üçüncü yer" anlayışından başqa, Anzalduanın "nepantla" anlayışı da maraqlıdır. Alim deyir ki, "nepantla" anlayışı bu və ya digər şəxs olmağı yox, permanent şəkildə dəyişiləni ifadə edir.

Dissertasiya işinin **"Cefri Yevgenidesin romanlarında identiklik iki qütb arasında"** adlı II fəsli üç paraqrafdan ibarətdir. Birinci paraqraf **"C.Yevgenidesin "Bakirə müntəhirlər" romanında depressiv yeniyetmə kimliyi"** adlanır. Yunan əsilli çağdaş Amerika romançısı Cefri Yevgenidesin 1993-cü çapdan çıxan debüt romanı "Bakirə müntəhirlər" 1970-ci illərdə şəhəryanı bir kənddə yaşayan Lisbon ailəsinin başına gələn tragik hadisələrdən bəhs edir. Müəllifin nəhsliyi, faciəni işarələmək üçün xüsusi simvolik vurğu saldığı 13 ay boyunca Lisbonlar ailəsinin beş yeniyetmə qızı dalbadal intihar edirlər. İntiharlar silsiləsi 13 yaşlı Sesiliya ilə başlayır. Sonra əvvəlcə üç bacı – Lyuks (14 yaş), Bonni (15 yaş), Meri (16 yaş) birlikdə, axırda isə 17 yaşlı Teresa intihar edir.

Roman birinci şəxsin cəmində – "biz təhkiyəçi" ilə yazılıb. Fərdiliyin yox olduğu, icma düşüncəsinin, kollektiv həyatın göylərə qaldırıldığı 70-ci illərin amerikan əyalətində Lisbon ailəsinin qızlarını daim uzaqdan müşahidə edən qonşu oğlanlar bu "korporativ təhkiyə"ni nəql edirlər. Əsər intihar hadisələrindən 20 il sonra o vaxtlar nələr baş verdiyini, qızların niyə özlərinə qəsd etdiklərini,

---

[6] Rutherford, J. The Third Space. Interview with Homi Bhabha. Identity: Community, Culture, Difference / J. Rutherford. London: Lawrence & Wishart, – 1990. – p. 207-221.

[7] Anzaldúa, G. Borderlands / La Frontera: The New Mestiza / G. Anzaldúa. San Francisco: Aunt Lute, – 1999. – 260 p.

kim olduqları başa düşməyə çalışan, artıq yaşlaşmış, keçəlləşmiş qonşu oğlanlarının xatirələri, araşdırmalarından ibarətdir.

Cefri Yevgenides "amerikan xəyalı"nın (American dream) qaranlıq, gözdən qaçan tərəflərini, periferiyanın illüzior dinamikasını, əmin-amanlıq, sabitlik mifinin çatlarından bəhs edən bu romanında öz fərdi kimliyini formalaşdırmaqdan imtina edərək planlı ətraf mühit, pastoral xarakterli sosial qaydalar, əyalət kodeksləri yaradaraq onlara inanmağın fəsadlarını göstərir. Lisbon ailəsində ata da, ana da riyazi qaydalarla yaşayan pedantlardır. Onlar üçün nə öz fərdiyyətləri, nə də övladlarının individual kimliyi önəmlidir; əsas sosial sırada, cəmiyyətin diqtə etdiyi kollektiv kimlik illüziyasını davam etdirməkdir, bunun üçün də, tənqidçi Cudit Batlerin dediyi kimi, "etika üçün zorakılığ"a baş vururlar.

II fəslin **"C.Yevgenidesin "Midlseks" romanında irsiyyətin kimlik formalaşmasında rolu"** adlı ikinci paraqrafında Amerika yazıçısı Yevgenidesin sözügedən romanı yeni əsrin aktual məsələlərindən olan cinsi və etnik kimlik kontekstində təhlil edilir.

Cefri Yevgenidisin 2002-ci ildə çapdan çıxan, nüfuzlu "Pulitser" mükafatını qazanmış, indidən XXI əsrin ən yaxşı romanlarından sayılan "Midlseks" ("Middlesex") adlı əsəri iki qitəyə yayılmış bir ailənin üç nəslindən bəhs edir. Roman, əslində, bir genin hekayəsidir; Yevgenidisin əsas sualı budur: "Bizi biz edən nədir, genlərimiz, yoxsa seçimlərimiz?" Müəllif qəhrəmanın kimlik axtarışını eləcə fərdi bir axtarış şəklində təqdim etmir, əksinə, ictimai bir məsələnin təzahürü kimi təqdim edir.

Əsər dörd bölmədən ibarətdir, müəllif bu bölmələri kitab adlandırır; hər bölmə öz daxilində hissələrə bölünür.

Müəllifin baş personaja seçdiyi Kalliopa adı yunan mifologiyasındakı məşhur yeddi muzadan birinin – epik poeziya ilahəsinin adıdır.

II fəslin **"C.Yevgenidesin "Evlilik əhvalatı" romanında praqmatik və romantik kimliklərin qarşıdurması"** adlı üçüncü paraqrafında Yevgenidesin sözügedən romanında identikliyin praqmatik və romantik çalarları araşdırılır.

Cefri Yevgenidesin "Evlilik əhvalatı" romanı ilk baxışdan sadə bir məhəbbət üçbucağı üstündə qurulub. Lakin o, Qərb ədəbiyyatında

son dövrlərdə dövriyyəyə buraxılan “chick literature” – 20-30 yaş arası qadınların romantik macəralarından bəhs edən yüngül romanlardan deyil. Romandakı sevgi, evlilik mövzusu bu gün dünyada yüzlərcəsi yazılan bulvar ədəbiyyatı nümunələrindəki kimi yox, fəlsəfi qatda, bədii detal zənginliyi ilə işlənib.

Roman boyu Yevgenides təkcə Madelin Hanna və Leonard Bankhed arasındakı biri praqmatik-depressiv, digəri isə romantik iki müxtəlif kimlik arasındakı qarşıdurmanı nəql etmir, eyni zamanda Madelinin ingilis ədəbiyyatında evlilikdən bəhs edən əsərlərlə bağlı elmi iş yazmasından bəhs edir və bu mənada sonsuz allüziyalarla zəngindir. Əsərdə çoxsaylı fəlsəfi və ya teoloji refereranslar mövcuddur: Buddizm, Müqəddəs Avqustin, Jak Derrida, Ferdinand de Sössür, Rolan Bart və başqa elmi istinadlar.

Əsərin qadın qəhrəmanı Madelin anasından fərqli olaraq öz xəyallarını gerçəkləşdirmək üçün çalışır, həm elmi kariyera, həm də sevgi evliliyi baxımından. Nəzərə alsaq ki, roman ötən əsrin 70-ci illərinin sonu, 80-ci illərin əvvəllərindən bəhs edir, yəni Qərbdə qadın hərəkatlarının, ikinci dalğa feminizmin, dekonstruksiya fəlsəfəsinin məşhurlaşdığı dövrdən, onda Madelinin özünə inamı, öz kimliyini kəşf etmək arzusu başa düşüləndir.

Cefri Yevgenides “The Guardian” jurnalisti Sarfraz Manzura [8]verdiyi müsahibədə “Evlilik əhvalatı” romanıyla bağlı deyib ki, bu əsərdə evliliyin hansı elementlərinin çağdaş dövrdə keçərli olduğunu, hansı ünsürlərin ənənədən ayrıldığını araşdırmağa çalışıb. Bu mənada yazıçı özündən əvvəlki müəlliflərin məqsədini – evlilik anlayışını, onun insanlararası münasibətərlərə təsirini, insan kimliyinin formalaşmasına evliliklə bağlı cəmiyyətdəki ümumi qənaətlərin təsirini saf-çürük etmək istəyir. Madelin ədəbiyyatı sevən, filologiya tələbəsi olan və elmi işi də evlilik təklifləri ilə bağlı olan bir qızdır. Müəllif bir az da ironik tonda onun bu ixtisası necə seçməsini belə ifadə edir: *“İngilis ədəbiyyatını seçməyinin səbəbi səbəblərin ən safı və adisiydi: oxumağı çox sevirdi.”* [9]

---

[8] Manzoor, S. Eugenides, J. Jeffrey Eugenides on the Marriage Plot: [Electronic resource] / The Guardian, YouTube – 2011. – Video.

[9] Eugenides, J. The Marriage Plot / J. Eugenides. – London: Fourth Estate, – 2012. – 416 p.

“Conatan Safran Foyerin yaradacılığında genealogiya və identiklik” adlı III fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf **“C.S.Foyerin “Hər şey aydınlandı” romanında yəhudi kimliyinin şəcərəsinə doğru”** adlanır və burada identiklik anlayışının bu romanda necə öz əksini tapması təhlil edilir. XX əsrin birinci yarısında, daha dəqiqi, İkinci Dünya müharibəsindən sonra yəhudi-amerikan ədəbiyyatında asimilasiya, ümidsizlik, dekadent ovqat, özünə nifrət mövzuları yüksəlişdə idi. 1950-ci illərin sonu, 60-cı illərin əvvəllərindən etibarən milli özünə qayıdış, etnik-milli kökləri araşdırma dalğası başladı ki, bu da əvvəlki dövrdəki dekadent əhvalı səngitdi.

Yəhudi-amerikan ədəbiyyatında Karl Şaripo, Bernard Malamud, Sol Bellou, Norman Meyler, Filip Rot, Conatan Safran Foer və digər şair-yazıçılar kimliyi müxtəlif aspektlərdən təhlil ediblər.

Conatan Safran Foyerin ilk romanı “Hər şey aydınlandı” 2002-ci ildə çapdan çıxan kimi böyük rezonans doğurdu. Foyerin debüt romanı, əslində, əvvəlcə dissertasiya işi kimi yazılıb, sonradan məşhur Amerika yazıçısı Coys Kerol Outsun tövsiyəsi və dəstəyi ilə o, elmi işini yazarkən topladığı materialları romanlaşdırıb.

“Hər şey aydınlandı” əsəri öz ideyasını, məramını təkcə süjeti ilə yox, fərqli forma, təhkiyə eksperimenti və mətnə daxil edilən illüstrasiyalar vasitəsilə də ötürür. Belə ki, əsərin başlanğıcından etibarən müəllif hiss etdirir ki, onun üçün təkcə nəyi demək yox, necə demək də vacibdir. Foyer romanda xronologiyanı pozur, qeyri-xətti (unlinear) metoddan istifadə edir, süjeti üç fərqli narrativ yolla çatdırır:

Birincisi, Holokost vaxtı babasını nasistlərdən xilas edən qadını tapmaq üçün Ukraynaya gedən amerikalı yəhudi yazıçı (onun da adı Conatan Safran Foyerdir) haqqındadır. Bu hissələr ingilis dilini yaxşı bilməyən ukraynalı tərcüməçi Aleksin səhvlərlə dolu, gülməli, ironik təhkiyəsində yazılıb; əsəri oxuduqca məlum olur ki, bu hissələr Foyeri Ukraynada müşayət edən Aleksin öz təcrübələrini yazdığı bir kitabın hissələridir.

İkincisi, Conatanın bu axtarış, bu səyahət haqqında öz yazdığı və Aleksə göndərdiyi kitabın hissələridir. Bu hissələr alternativ tarix, yaxud psevdo-tarix formatında, magik realist tərzdə yazılıb.

Üçüncüsü, Amerikaya qayıtdıqdan sonra Foyerin Aleksə, Aleksin də Foyerə yazdığı məktublardır. Bu məktublar digər iki

hissədəki məsələlər haqqında şərhlərdən, eləcə də, tərəflərin bir-birlərinə yazdıqları tövsiyələrindən ibarətdir. Bu epistolyar hissələrdəki şərhlər göstərir ki, Foyer ənənəvi tərzdə bir roman yazmır və bununla da oxucuya ötürməyə çalışır ki, kimlik axtarışı və Holokostla bağlı yazılan ənənəvi, realist, xronoloji məntiqlə yazılmış əsərlər mətnin nüvəsində olan travmanı ifadə etmək gücündə deyil. Başqa dil, başqa yol tapmaq, ən azı axtarmaq lazımdır.

III fəslin **"C.S.Foyerin "Mən, buradayam" romanında virtual reallıq erasında amerikan-yəhudi kimliyi"** adlı ikinci paraqrafında Foyerin sözügedən əsərində identiklik anlayışının etnik, eləcə də yeni əsrdəki virtual xarakteri araşdırılır.

Conatan Safran Foyerin ən iri həcmli romanı olan "Mən, buradayam" Vaşinqtonda yaşayan adi bir yəhudi ailənin 700 səhifəlik hekayəsidir. Bu ailə İkinci Dünya Müharibəsi zamanı öldürülən Polyak-yəhudi yazıçı Bruno Şultzun vətəni olan, yəhudi mədəniyyətində, adət-ənənəsində məxsusi yeri olan polyak şəhəri (bu gün Ukrayna ərazisindədir) Drohobıçdandır. Romanın mövzusu bir ailənin dağılmasına paralel şəkildə İsraildə müharibənin başlaması və Amerikada yaşayan yəhudi Bloklar ailəsinin öz kimliklərilə üzləşməsindən bəhs edir.

Roman Bloklar ailəsinin böyük oğlu Semin məktəbdə bir kağıza irqçi sözlər yazmaqda ittiham edilməsiylə başlayır. Sem ittihamları qəbul etmir və üzr istəməyi rədd edir, bu da "bar mitzvah" ayininin keçirilməsini riskə atır. Yəhudiliyə görə, 13 yaşa çatan yəhudi oğlanları öz əməllərindən məsul olurlar və yetkinliyə qədəm qoyurlar. "Bar mitzvah" mərasimindən əvvəl uşağın əməllərinə görə məsuliyyət valideynlərinin üzərinə düşür. [10]

Conatan Safran Foyer romanla bağlı Terri Qrossa verdiyi radio-müsahibədə yenidən romanın adından çıxış edərək belə deyir: *"İshaq atasını çağırır: "Ay ata!", atası İbrahim cavab verir: "Mən, buradayam", birbaşa əks-səda. Çox təsirli andır. Ancaq həm də çox paradoksal andır, çünki oğlunuz üçün mövcud olsanız da, oğlunuzu qeydsiz-şərtsiz öldürməyinizi istəyən Allah üçün mövcud ola bilməzsiniz. Məncə, bu kimlik paradoksudur, çünki iki yerdə eyni vaxtda mövcud olduğumuzu və hər ikisini də sadiq qaldığımızı*

[10] Foer, J.S. Here I Am / J. S. Foer. – Picador paper, – 2017. – 592 p.

düşünsək də, əslində, personajların həyatında belə olmur, onlar dini və sekulyar dəyərlər arasındakı paradoksu hiss edirlər."[11]

Foyer personajların ailədaxili problemləriylə və xarici dünyadakı katastroflar arasında paralellər qurur, eyni zamanda, hər bir personajın fərdi dünyasındakı təbəddülatlar, ikiləşmələr ilə xarici dünya arasında analogiyalar aparır, yəni fərdi kimlik ilə kollektiv kimlik arasındakı qarşıdurmalardan, ziddiyyətlərdən bəhs edir. Müəllif bir ailənin məhrəm dünyasına nüfuz edərək ən xırda detalları belə ensiklopedik vasvasılıqla təsvir edir və bir ailənin modelində toqquşan, ikiləşən, dəyişmək istəyən kimliklərdən söz açır.

III fəslin **"C.S.Foyerin "Hədsiz səsli-küylü və inanılmaz doğma" romanı çağdaş bildunqsroman örnəyi kimi"** adlı üçüncü paraqrafında Foyerin romanı identiklik anlayışının öz ifadəsini ən yaxşı tapdığı roman növlərindən hesab edilən "bildunqsroman" örnəyi kimi analiz edilir.

"Bildungsroman" fərdin, individin özünü yetişdirmə, inkişaf etdirmə prosesini təsvir edir və bundan bəhs edən romanlara da "bildungsroman" deyilir.

Conatan Safran Foyerin 2005-ci ildə çap olunan və geniş rezonans doğuran ikinci romanı "Hədsiz səs-küylü və inanılmaz doğma" əsəri 2001-ci il 11 sentyabrda ABŞ-da baş verən terror hadisəsində atasını itirən doqquz yaşlı Oskar Şelldən bəhs edir. Oskar atası Tomas Şellin ölümündən sonra yuxusuzluq, panika və depressiyaya mübtəla olur. Roman boyu depressiya hissini "ağır çəkmələr geyinmək" şəklində ifadə edir və bu hissdən qurtulmaq üçün tez-tez özünü çimdikləyərək yaralayır.

Asperger sindromu olan, maraqlandığı hər şeylə bağlı informasiyanı beyninə həkk edən, yaşına görə hədsiz üstün zəkaya sahib olan, obsessiv Oskar bir gün mərhum atasının şkafından bir açar tapır və həmin açarın izinə düşərək Nyu-Yorkda "Black" soyadı olan adamların siyahısını çıxarır, onların hamısıyla tanış olmaq qərarına gəlir. Bu səyahət, bu axtarış, bu natamamlığı tamamlamaq

---

[11] Jonathan Safran Foer On Marriage, Religion And Universal Balances: [Electronic resource] / October 11, 2016. URL: https://www.npr.org/2016/10/11/497515290/jonathan-safran-foer-on-marriage-religion-and-universal-balances

ehtirası Oskar üçün bir yandan vaxtsız itirdiyi atasının boşluğunu doldurmaq, digər tərəfdən isə travma sonrası həyatla uzlaşmaq, öz kimliyini tapmaq səyahətinə çevrilir.

Conatan Safran Foyer "Hədsiz səs-küylü və inanılmaz doğma" romanı ilə bir neçə əsrlik ənənəsi olan "bildungsroman" növünə yeniliklər gətirib. Belə ki, əvvəlki əsrlərdə bu cür romanların qəhrəmanı əsasən gənclər idisə, burada roman qəhrəmanı doqquz yaşlı uşaq və onun öz kimliyini axtarmasıdır. Bu mənada Foyerin romanını Hötedən çox, XX əsrin görkəmli alman yazıçısı Günter Qrassın "Tənəkə təbili" romanıyla müqayisə etmək olar. Belə ki, "Tənəkə təbili" də uşaq-qəhrəmanın dilindən nəql edilir. Bundan başqa Foyer yaradıcı müəllif kimi təkcə ənənəvi fəndlərdən istifadə etməyib, romanında çox saylı avanqard ədəbi fəndlərdən, vizual elementlərdən istifadə edib. Bir uşağın qarışıq, mürəkkəb, dəyişkən, rəngli dünyasını ifadə etmək üçün Foyer roman boyu gah müxtəlif hərfləri başqa-başqa rənglərdə yazır, gah əllə, yaxud fotoaparatla çəkilmiş fotolardan və rəsmlərdən istifadə edir, gah da hərflərin iç-içə keçər görünməz olduğu, yəni bir növ sözlərin mənasını itirib sükutun ərazisinə keçdiyi metodlardan istifadə edir.

Dissertasiyanın **"Nəticə"** hissəsində əldə edilmiş elmi-nəzəri qənaətlər aşağıdakı şəkildə ümumiləşdirilmişdir:

- XXI əsrdə qlobal miqyasda münaqişə ocaqları çoxaldıqca, dünyanın əksər yerlərində faşizmə bənzər radikal millətçi dalğa yüksəlişə keçdikcə, bəşəriyyət yenidən başqasını anlamaq, özünü özgəsinin yerinə qoymaq, tolerantlıq, multikulturalizm kimi anlayışları yeni gözlə təhlil etmək məcburiyyəti ilə üz-üzə qalıb. Neo-liberal iqtisadi modellərin yeni əsrdəki münaqişələrdən sonra başlayan dalğası öz parıltısını itirdi, Qərb dünyasında birgəyaşayış, multikulturalizm ideyasının iflası kimi təhlükəli fikirlər səslənməyə başladı. Ötən əsrdə daha çox dünyanın aparıcı universitetlərində, yəni akademik mühitində, daha dəqiq desək, politologiya və sosiologiyada təhlilə çəkilən identiklik anlayışının bədii ədəbiyyatda, eləcə də ədəbiyyatşünaslıqda daha intensiv şəkildə müraciət etməyin vacibliyi XXI əsrdə baş tutan anaxronik münaqişələrdə bir daha öz təsdiqini tapdı. Belə ki, multikultural rəngarənglik, identik müxtəlifliklə bağlı dayanıqlı, sabit, uğurlu

nəticələr əldə etmək üçün maddi rifaha söykənən nəzəriyyələrin yetərsizliyi ortaya çıxdı. İnsanın mənəvi dünyasını, identik müxtəlifliyini, psixoloji şəcərəsini nəzərə almayan heç bir iddia xeyirxah nəticələr gətirib çıxarmır. İncəsənət, mədəniyyət, bədii ədəbiyyatın təklif etdiyi mənəvi dünyada sınaqdan çıxarılmayan heç bir nəzəri müddəa insan şüurunda və ruhunda özünə yer tapa bilməz.

- Ötən əsrdə baş vermiş iki Dünya müharibəsi və onun fəsadları ucbatından öz vətənlərindən məcburi, yaxud könüllü mühacirət etməyə məcbur olmuş birinci nəsil immiqrant yazıçılar üçün yaxın tarixdə baş vermiş faciələri ifadə etmək çox çətin olub. Faciənin, ağrının təzəliyi onları ya sükuta, ya da bəzək-düzəksiz şəkildə birbaşa faciənin özünü ifadə etməyə sövq edib. Onlar üçün əsas məsələ öz milli mənsubiyyətlərini, kimliklərini qoruyub saxlamaq, adət-ənənələri yaşatmağın yolunu tapmaqdır. İkinci nəsil immiqrant yazıçılar faciədən, onun sarsıntılarından və nəticələrindən, eləcə də öz kimliklərindən bir addım uzaqlaşırlar, onlar üçün faciə də, identik kodları özündə daşıyan adət-ənənələr də bir nəsil əvvəlki həmvətənlərindən, valideynlərindən eşitdikləri, ailə albomlarının boş qalmış yerində hiss etdikləridir. Bu mənada onlar problemin daha çox tarixi kontekstinə fikir veriblər.
- Cefri Yevgenides və Conatan Safran Foyer kimi immiqrantların üçüncü nəslini təmsil edən müəlliflər isə baş verənlərdən daha uzaq düşüblər deyə kimlik böhranı içində identiklik axtarışındadırlar. Bu nəsil yazıçılar problemə daha yaradıcı və eksperimental yanaşırlar. Onların fikrincə, artıq bərpa olunması qeyri-mümkün olan keçmişin müəyyən hissəsini yalnız təsəvvür etmək mümkündür, ona görə də identiklik sabit yox, hər dəfə ifadəsində dəyişən çoxçalarlı xarakterdədir.
- Cefri Yevgenides “Bakirə müntəhirlər” romanında ərgənlərin, yeniyetmələrin depressiv kimliyinə, kimlik böhranlarına kiçik amerikan qəsəbəsində yaşayan Lisbon ailəsinin beş qızının bir-birinin ardınca intihar etməsini araşdıran qonşu oğlanların baxış bucağından təsvir edir. Bu konservativ mühitdə fərdi kimliyin özünüifadə imkanı tapmamasını müəllif təkcə müxtəlif sosial-

psixoloji vəziyyətlər vasitəsilə yox, eyni zamanda, üslubda, təhkiyədə də göstərir. Belə ki, romanda qızların taleyini kənardan izləyən və romanı nəql edən qonşu oğlanlar üçüncü şəxsin cəmi olan "biz" formasında ifadə edilib, onların da fərdiyyəti yoxdur. C.Yevgenidesin sözügedən romanında siyasi propoqanda aləti olan proqressiv "amerikan arzusu" mifi mühafizəkar mühit, həmin mühitdə sıxılan, boğulan və identiklik böhranı keçirən yeniyetmələrin faciəsi fonunda tənqid edilir.

- C.Yevgenidesin "Midlseks" romanında bioloji kimlik probleminə irsiyyətin, genetikanın rolu və performativlik anlayışı bucağından baxılır. Roman biologiyanın və çağdaş genetika elminin nailiyyətlərini romanın strukturuna daxil etməklə, problemə yanaşmasını ənənəvi, birbucaqlı və ənənəvi yanaşmadan çıxarmağa, eksperimental və interdisiplinar metodla ifadə etməyə cəhd edir. Yunan əsilli Yevgenides öz romanında bioloji kimlik probleminə həm yunan mifologiyasındakı obrazlar, həm çağdaş elmi kəşflərin işığında baxmaqla, mif dövrü ilə loqos dövrü arasında körpü qurmaqla çoxperspektivli təhkiyəyə nail olur.
- C.Yevgenides "Evlilik əhvalatı" romanında praqmatik-romantik kimlik qarşıdurmasını təhlil etmək üçün "evlilik" anlayışını dekonstruksiya edir. Müəllif sözügedən qarşıdurmanı ifadə etmək üçün bədii ədəbiyyat, eyni zamanda, filologiya tarixindən çoxsaylı müəlliflərin əsərlərinə istinad etməklə, ümumiyyətlə ədəbiyyat tarixində evlilik, romantik kimlik və praqmatik kimlik strategiyalarını birbaşa mədəniyyət tarixinin özünə referansla ifadə etmişdir. Bununla müəllif demək istəyir ki, bizim insan münasibətlərində, hər cür ünsiyyət aktında, sevgidə, evlilikdə romantik və ya praqmatik deyərək iki yerə böldüyümüz, yəni klassik binar ziddiyyətləri təkrar etdiyimiz anlayışların əksəriyyəti, eləcə də onların üzərində formalaşdırdığımız identik obrazların sosial konstruksiyalarıdır.
- Conatan Safran Foyerin "Hər şey aydınlandı" romanında üçüncü nəsil yəhudi immiqrantların identiklik problemi intensiv şəkildə dəyişən axtarış motivi vasitəsilə təhlilə çəkilir. Conatan Safran Foyer amerikan cəmiyyətində yeni yəhudi

kimliyinin necə formalaşmasıyla maraqlanan və əcdadlarının zədəli keçmişiylə maraqlanan, oradakı qaranlıq məqamlarla üzləşmək, hesablaşmaq istəyən romançıdır. Yazıçı kimi öz kimliyini tapmaq, dərk etməklə əlləşir və bunu həyata keçirmək üçün keçmişlə münasibətlərini aydınlaşdırmaq, keçmişlə bağlı yarımçıq hissələri tapmağa cəhd edir. Foyerin fikrincə, üçüncü nəsil immiqrantlar üçün, yəni bir növ artıq Amerika cəmiyyətinə uyğunlaşmış, gözünü açıb bu cəmiyyətin qaydalarını görmüş yəhudilər üçün uzaq keçmişdə qalmış yəhudi kimliyi həmişə bir az yarımçıq olacaq. Belə ki, bu kimlik artıq birjadakı gündəlik məzənnə kimi dəyişkəndir, fiksiyadır.

- "Hər şey aydınlandı" romanında kimlik axtarışı mövzusu iki əsas motivə söykənir: hekayələrin fraqmentarlığı, özünüdərk üçün səyahətə çıxmaq. Romandakı əhvalatlar, süjetin quruluşu personajların natamam kimlik hissi kimi fraqmentardır, parça-parçadır. Beləliklə, romanın müəlliflə adaş olan qəhrəmanı Conatan həm öz kimliyinin hissələrini, həm də öz şəcərəsi, keçmişi haqqında yarımçıq bildiyi əhvalatın parçalarını birləşdirməyə çalışır. Romanın əvvəlində fiziki və mənəvi cəhətdən yarımçıq, ortabab, bilgisiz bir yeniyetmə olan ukraynalı Aleks hadisələr inkişaf etdikcə, səyahətin həm üfuqi, həm də şaquli qatı ortaya çıxdıqca, get-gedə dəyişir, sevimli, dürüst və məsuliyyətli gəncə çevrilir.
- C.S.Foyerin "Hədsiz səs-küylü və doğma" romanında identiklik böhranı bir uşağın timsalında özünü göstərir. 11 sentyabr terror aktında atasını itirən Oskar üçün bütün şəhər bir oyun meydançasına, axtarış məkanına, atasının gizlətdiyi sirləri və bu yolla özünü tapmaq topoqrafiyasına çevrilir. Foyerin fikrincə, XXI əsrdə istənilən kimlik forması fasiləsiz şəkildə kəsintiyə məruz qalır, çünki dünya özü artıq fraqmentar, parçalanmış, vahidliyi olmayan hissələrdən ibarətdir. Yeni əsrdə identiklikdən çox, onun böhranından danışmaq mümkündür. Artıq yeni əsrdə bütöv, hazır identiklikdən yox, qırıntıları toplayıb təxəyyül hesabına bərpa etdiyimiz sürüşkən və dəyişkən kimlik anlayışından söhbət aça bilərik.

- “Mən, buradayam” romanında identiklik problemi real-virtual kimlik qarşıdurması şəklində, eyni zamanda, etnik kimliyin tarixdən gələn gücünün indiyə təsir etməsi, yəni kollektiv kimliklə fərdi kimlik toqquşması formasında öz ifadəsini tapmışdır. Foyer əvvəlki əsərlərindəki qənaətini davam etdirir: identiklik yalnız ziddiyyətlər və qarşıdurmalar hesabına mövcud ola bilər.

Beləliklə, məlum olur ki, hər iki müəllif özündən keçmiş əsrlərə xas olan, anaxronik hesab etdikləri klassik binar ziddiyyətlərdən xilas olmağa çalışsa da, əslində, sonra böhran halında gördükləri kimliyi ayaqda saxlamaq üçün yenidən binar ziddiyətlərə, ikili qarşıdurmalara sığınır.

Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:

1. Rüstəmov, Q.E. Cefri Yevgenidesin “Midlseks” romanında gender identikliyi problemi // – Bakı: Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, – 2020. № 2, – s. 51-57.
2. Rüstəmov, Q.E. İdentiklik axtarışları: cinsi və ictimai kimlik probleminin ideya-estetik qaynaqları // – Bakı: Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri, – 2020. № 2, – s. 172-177.
3. Rüstəmov, Q.E. Cefri Yevgenidesin “Bakirə Müntəhirlər” romanında identiklik axtarışları // Gənc tədqiqatçıların III Respublika elmi-praktik konfransı, – Bakı: Azərbaycan Universiteti, – 13 mart, – 2020, – s. 257-259.
4. Rüstəmov, Q.E. Conatan Safran Foyerin “Hədsiz səs-küylü və və inanılmaz doğma” əsəri çağdaş “Bildunqsroman” örnəyi kimi // – Bakı: Filologiya məsələləri, – 2021. № 7, – s. 221-234.
5. Rüstəmov, Q.E. Cefri Yevgenidesin “Evlilik əhvalatı” romanında praqmatik və romantik kimlik qarşıdurması // – Bakı: Bakı Dövlət Universiteti, Dil və Ədəbiyyat, – 2021. № 2 (116), – s. 162-166.
6. Rüstəmov, Q.E. Cefri Yevgenidesin “Midlseks” romanında milli-mədəni özünəməxsusluq və akulturasiya // “Dil, cəmiyyət, şəxsiyyət və Nizami Gəncəvi yaradıcılığı” adlı

Beynəlxalq Elmi Konfrans, – Sumqayıt: Sumqayıt Dövlət Universiteti, – 28-29 oktyabr, – 2021, – s. 150-153.
7. Rüstəmov, Q.E. Conatan Safran Foyerin “Mən, buradayam” romanında kimlik parçalanması // – Bakı: Azərbaycan Universiteti, İpək yolu, – 2021. № 3, – s. 130-135.
8. Рустамов, Г.Э. Поиски идентичности в период пост-памяти в романе Джонатана Сафрана Фоера «И все осветилось» // – Україна: Актуальні питання гуманітарних наук, – 2021. Том 3, вип. 41, – с. 111-119.
9. Рустамов, Г.Э. Междисциплинарный взгляд на исследования идентичности: новый взгляд на связь между нарративной идентичностью и нарратологией // International Scientific discussion: Problems, Tasks and Prospects, – Great Britain: Brighton, – 21-22 June, – 2021, – № 63, с. 164-172.

Dissertasiyanın müdafiəsi 18 Aprel 2024-cü il tarixində saat 12:00 Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "27" Fevral 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.02.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 38 485 işarə

Tiraj: 100 nüsxə